Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: Fevral 2018

# Müstəqil əmək fəaliyyəti - məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

**Müstəqil əmək fəaliyyəti** o deməkdir ki, şəxs öz adı altında və öz şəxsi hesabına, qeyri-müəyyən müddətə və daima işləyir. Müstəqil əmək fəaliyyəti ilə məşğul olan şəxs əmrlərə tabe deyil və onun fəaliyyətinin iqtisadi nəticələrin özü ilə gətirdiyi xeyir və ziyan birbaşa ona aid edilir. Bu bir qayda olaraq aşağıdakı şəxslərə şamil edilir:

- Müəssisəni təsis edən şəxslər və ayrı-ayrı iş adamları
- Müəssisə rəhbərləri/icraçı direktorlar habelə tərəfdaş cəmiyyətlər və korporasiyaların qanuni nümayəndələri, əgər onlar həmin qurumlarda muzdlu əmək fəaliyyəti göstərmirlərsə (bu halda „Muzdlu əmək fəaliyyəti" və „Aİ Göy Kartına" dair məlumat vərəqələrinə nəzər salın).

„Almaniyada yaşamaq Qanunun" § 21 maddəsinə əsasən yaşamaq icazəsi aşağıdakı hallarda verilə bilər:

- İqtisadi maraq və ya regional ehtiyac varsa,
- fəaliyyətin iqtisadiyyata müsbət təsirini gözləmək olarsa və
- fəaliyyətin həyata keçirilməsi üçün şəxsi kapital və ya kreditin ayrılması təmin edildiyi təqdirdə.

Sənədlərə baxılma müddəti bir neçə həftədən bir neçə ayadək davam edir.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

- Xarici pasport, ən az 2 boş səhifəsi olmaqla *(xarici pasportun şəkil olan səhifəsi və əvvəlki Şengen vizaları, möhürlər və qeydlər olan səhifələrin 2 ədəd surəti)*
- Şəxsiyyət vəsiqəsi *(əsli + 2 ədəd surəti)*
- 2 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış ərizə forması
- 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı)
- Sizin fərdi əmək fəaliyyətinizə dair sənədlər *(2 ədəd surəti):*
  - Şirkətin əsas fəaliyyəti, təsis olunması və fəaliyyət sahəsi barədə məlumat və biznes konsepsiyası
  - Biznes planı, o cümlədən kapitalın istifadəsi və maliyyə planı haqqında məlumat, eləcə də ehtimal olunan iş yerlərinin və peşə təhsili alan şagirdlərin sayına dair məlumatlar:
  - Marketinq strateqiyası
  - Mənfəət proqnozu
  - Ofisə dair məlumatlar
- Peşə təhsilinizi və əmək fəaliyyətinizi əks etdirən tərcümeyi-hal *(əsli + 2 ədəd surəti)*
- İxtisaslaşmaya dair təsdiqlər (məs. diplom, sertifikatlar, iş yerindən arayış, dil sertifikatı) *(əsli + 2 ədəd surəti)*
- Daimi yaşayış üçün tibbi sığortaya dair təsdiq/təklif və qayğı sığortası *(2 ədəd surəti)*
- Almaniyada pensiya sığortası üzrə təsdiq/təklif *(2 ədəd surəti)*
- Qalma yerinə dair təsdiq sənədi *(2 ədəd surəti)*
- **Viza verilərkən əlavə olaraq təqdim olunmalıdır:** 90 gün müddətinə tibbi sığorta haqqında sənəd (sığorta ödənişinin minimal məbləği 30.000 Avro və bütün Şengen dövlətləri üçün etibarlı olmalı) *(əsli + 2 ədəd surəti)*